# CƏNUBİ QAFQAZ HÜQUQ MÜDAFİƏÇİLƏRİNİN AZƏRBAYCAN ŞƏBƏKƏSİNİN EYNULLA FƏTULLAYEVƏ QARŞI ÇIXARILAN HÖKMLƏ BAĞLI BƏYANATI

Cənubi Qafqaz Hüquq Müdafiəçilərinin Azərbaycan Şəbəkəsinin üzvləri «Realnı Azərbaycan» və «Gündəlik Azərbaycan» qəzetlərinin baş redaktoru Eynulla Fətullayevin iki il yarım müddətinə azadlıqdan məhrum edilməsini qətiyyətlə pisləyir və bunu ölkədə söz azadlığına növbəti qəsd kimi qiymətləndirir.

E.Fətullayev 2007-ci ildə terrorla hədələmə, milli ədavəti qızışdırma və vergidən yayınmaqda ittiham olunaraq səkkiz il yarım müddətinə azadlıqdan məhrum edilib. Bu il aprelin 22-də Avropa İnsan Hüquqları Məhkəməsi həmin işlə bağlı E.Fətullayevin şikayətinə baxaraq jurnalistin hüquqlarının pozuntusunu tanıyıb və Azərbaycan hökumətindən onun dərhal azadlığa buraxılmasını tələb edib.

Lakin Azərbaycan Hökuməti Avropa Məhkəməsinin həmin qərarını dərhal icra edərək jurnalisti həbsdən azad etmək əvəzinə ona qarşı narkotik maddələrdən istifadə ilə bağlı saxta ittiham ilə növbəti cinayət təqibi başlayıb. 2009-cu il dekabrında 12 saylı cəzaçəkmə müəssisəsində E.Fətullayevin saxlandığı kamerada anonim məlumat əsasında aparılan yoxlama nəticəsində jurnalistin geyimində və ayaqqabısında 0,22 qram heroin aşkar edilməsi ittihamı əsasında növbəti cinayət işi qaldırılıb. Bu iş üzrə istintaq və məhkəmə prosesi milli qanunvericiliklə və beynəlxalq aktlarla təminat verilən ədalətli məhkəmə araşdırması standartlarının kobud pozuntusu ilə keçirilməsinə baxmayaraq jurnalistə qarşı irəli sürülən ittihamın əsassızlığı tam sübuta yetirilib. Buna baxmayaraq jurnalistin iki il yarım müddətinə azadlıqdan məhrum edilməsi məhkəmənin bu işdə qərəzli mövqe tutmasının və hökmün sifarişlə çaxarılmasının göstəricisidir.

Şəbəkə demokratik cəmiyyətlərdə mətbuat azadlığının rolunu, o cümlədən jurnalistlərin araşdırma hüququna və onların tənqidi mülahizələrinə dözümlə yanaşmağın vacibliyini Azərbaycan Hökumətinin diqqətinə çatdırır.

Şəbəkə Azərbaycan Hökumətini E.Fətullayevin dərhal azadlığa buraxılması barədə Avropa İnsan Hüquqları Məhkəməsinin qərarını icra etməyə və jurnalistə qarşı əsassiz cinayət təqiblərinə son qoymağa çağırır.

***Cənubi Qafqaz Hüquq Müdafiəçilərinin Azərbaycan Şəbəkəsinin üzvləri:***

*Hüquq Maarifçiliyi Cəmiyyəti*
*Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutu*
*Media Hüququ İnstitutu*
*Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi*
*Demokratiya və İnsan Hüquqları üzrə Resurs Mərkəzi İctimai Birliyi*
*D.Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti*
*Demokratiya və Qeyri-Hökumət Təşkilatlarının İnkişaf Resurs Mərkəzi*
*Humanitar Araşdırmalar Cəmiyyəti*